AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ

Əlyazması hüququnda

GÜLSƏRƏN HAMLET QIZI ÖMƏROVA

# İNGİLİS VƏ AZƏRBAYCAN ƏDƏBİYYATINDA SOSİAL MÜHİT VƏ İNSAN PROBLEMİ (U.TEKKEREY VƏ C.MƏMMƏDQULUZADƏNIN ƏSƏRLƏRI ƏSASINDA)

5718.01 – Dünya ədəbiyyatı (ingilis ədəbiyyatı)

filologiya üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

A V T O R E F E R A T I

Bakı – 2013

İş Azərbaycan Dillər Universitetinin Xarici ölkələr ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | filologiya üzrə elmlər doktoru<br>Şahin Həmid oğlu Xəlilli |
| Rəsmi opponentlər: | filologiya üzrə elmlər doktoru<br>Nailə Məmmədhüseyn qızı Sadıqova |
| | filologiya üzrə fəlsəfə doktoru, dosent<br>Əzizə Qurban qızı Məmmədova |
| Aparıcı təşkilat: | Bakı Dövlət Universitetinin Dünya ədəbiyyatı kafedrası |

Müdafiə _30/03__ 2013-cü il saat _______ Azərbaycan Dillər Universiteti nəzdində elmlər doktoru və fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.02.081 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1014, Bakı şəhəri, Rəşid Behbudov küç., 60.

Dissertasiya ilə Azərbaycan Dillər Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat _____________________________ 2013-cü ildə göndərilmişdir.

D.02.081 Dissertasiya Şurasının elmi katibi,
filologiya üzrə fəlsəfə doktoru,
dosent Sevda Davud qızı Vahabova

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

*Mövzunun aktuallığı.* Dünya ədəbiyyatı, eləcə də dünya elmi və mədəniyyəti tarixində elə hadisə, fakt, şəxsiyyət və sair kimi problemlər vardır ki, onlar yalnız bir millətin, yaxud xalqın deyil, bütövlükdə bəşəriyyətin inkişafı yolunda mühüm əhəmiyyət kəsb edir. Bu kimi problemlər mədəniyyət və ədəbiyyat arealında, ayrı-ayrı xalqların ictimai-siyasi şüurunda və mədəni həyatında bu və ya digər şəkildə öz əksini tapır. Bu da bir həqiqətdir ki, ədəbi-nəzəri fikir və sənət nəzəriyyələri səyyar qaydada bir ölkədən başqa ölkəyə keçir, dünya xalqlarının ədəbi-mədəni həyatında təzahür edir. Lakin tarixin müxtəlif dönəmlərində ayrı-ayrı ölkələrdə yaranan ədəbi-nəzəri yeniliklərin zaman və məkan etibarilə bir-birindən uzaq ölkə ədəbiyyatında da paralellərinə rast gəlmək mümkündür. Klassisizm, sentimentalizm, simvolizm, romantizm kimi bədii yaradıcılıq metodlarının dünya ədəbiyyatına bəxş etdiyi töhfələr, onların təcrübəsindən bəhrələnən xalqların nəinki mədəniyyət və ədəbiyyatında, eləcə də ictimai-siyasi həyatında islahatların aparılmasına istiqamət vermişdir. Bu baxımdan realizmin dünya ədəbi-nəzəri fikrinə, eləcə də bədii təcrübəsinə gətirdiyi yeniliklər, çoxsaylı və müxtəlif janrlı əsərlər ümumbəşəri məna daşıyır. Dünyada zəngin tarixi və bədii sənət əsərləri ilə tanınan ingilis, eləcə də Azərbaycan ədəbiyyatlarında tənqidi realizmin, satirik düşüncənin təzahürü, onun fövqündə yaranan yeni sənət əsərlərinin və onların yaradıcılarının ictimai-tarixi rolunu araşdırmaq müasir ədəbiyyatşünaslıqda aktuallıq kəsb edən məsələdir. İngilis və Azərbaycan ədəbiyyatlarında sosial mühit və insan probleminin araşdırılması isə yalnız ədəbi yaradıcılığın tarixi təcrübəsinin öyrənilməsinə deyil, eləcə də müasir ədəbi-mədəni əlaqələrin daha geniş planda əxz edilməsinə imkanlar açır.

XIX əsrin 30-40-cı illərində İngiltərədə sənayeləşmə nəticəsində feodalizmin süqutu və yeni kapitalist münasibətlərinin formalaşması, XIX əsrin sonu və XX əsrin əvvəllərində Azərbaycanda neft sənayesinin vüsəti, ölkənin "neft və milyonlar" səltənətinə çevrilməsi, kapitalizmə xas sosial-siyasi ziddiyyətlərin daha da kəskinləşməsi hər iki xalqın taleyində müxtəlif problemlərin yaranmasına səbəb olmuş və bu dövrün tənqidi realist ədəbiyyatında aydın ifadəsini tapmışdır. İngilis və Azərbaycan ədəbiyyatlarında sosial mühit və insan qarşıdurmasının araşdırılması isə sadəcə bədii-estetik düşüncədə paralellik yaratmaq təşəbbüsü kimi dəyərləndirilməməlidir. Bu həm də insanın ictimai-tarixi taleyinin, onun bəşəri dəyərlərinin sosial durum və mühit miqyasında öyrənilməsi baxımından da əhəmiyyətli

ola bilər. İngilis ədəbiyyatında Uilyam Tekkerey, Çarlz Dikkens, Şarlotta Bronte, Elizabet Qaskel, Azərbaycan ədəbiyyatında Cəlil Məmmədquluzadə, Əbdürrəhimbəy Haqverdiyev, Mirzə Ələkbər Sabir, Əliqulu Qəmküsar, Əli Nəzmi kimi satirik və tənqidi realist sənətkarların yaradıcılığında bədii təcəssümünü tapan sosial mühit və insan probleminin tədqiqinin aktuallığı da bununla şərtlənir. Beləliklə, Uilyam Tekkerey və Cəlil Məmmədquluzadənin sosial mühit və insan problemini əsərlərində yeni realist meyarlarla əks etdirmələri, ictimai gerçəklik və onun insanın taleyinə təsiri məsələlərinə novator yazıçı mövqeyindən yanaşmaları, hər iki yazıçının bədii-yaradıcılıq metodunun çağdaş ədəbi proseslə üzvi əlaqəsi mövzunun aktuallığına dəlalət edir.

*Tədqiqatın predmeti.* Dissertasiya işinin predmeti ingilis və Azərbaycan tənqidi realizminin tanınmış nümayəndələri Uilyam Tekkerey və Cəlil Məmmədquluzadə yaradıcılığında bədii ifadəsini tapan sosial mühit və insan taleyi məsələsidir. Bu, yalnız bədii estetik təsvir və təhlildə deyil, eləcə də sosial-siyasi düşüncədə, cəmiyyət həyatına baxışlarda, ədəbi-fəlsəfi mühakimələrdə ifadə olunur.

*Tədqiqatın obyekti.* Tənqidi realizm estetikası kontekstində hər iki yazıçının yaradıcılıq meyllərinin müəyyənləşdirilməsi dissertasiyanın əsas obyekti kimi götürülmüş, hər iki görkəmli satirik yazıçının bədii irsi, sənətə elmi-nəzəri baxışı, dövrün ictimai-siyasi hadisələrinə münasibətindəki fərqli və oxşar cəhətlər tədqiqata cəlb olunmuşdur. Uilyam Tekkereyin "Kətrin" ("Catherine", 1839), "De la Plaçın memuarları" ("Memoirs of de la Pluch", 1840), "Bərri Lindonun taleyi" ("The Luck of Barry Lyndon", 1844), "Snoblar kitabı" ("The Book of Snobs", 1846-1847), "Şöhrətpərəstlik yarmarkası. Qəhrəmansız roman" ("Vanity Fair. A Novel Without a Hero", 1848), "Pendennisin tarixi" ("The History of Pendennis", 1850), "XVIII əsr ingilis yumoristləri" ("The English Humourists of the Eighteenth Century", 1851), "Henri Esmondun tarixi" ("The History of Henry Esmond", 1852), "Nyukomlar" ("The Newcomes", 1855), "Virciniyalılar, yaxud qeybə çıxmış əsrin həyatından povest" ("The Virginians, a Tale of the Lost Century", 1857-1859), "Dörd Georq" ("The Four Georges", 1855-1857), Cəlil Məmmədquluzadənin "Danabaş kəndinin əhvalatlarıˮ (1894), "Poçt qutusu" (1903), "Usta Zeynal" (1905), "Qurbanəli bəy" (1906), "Ölülər" (1909), "Anamın kitabı" (1920), "Danabaş kəndinin məktəbi" (1921), "Dəli yığıncağı" (1926) kimi əsərləri, habelə çoxsaylı felyetonları, hekayələri, ədəbi-tənqidi məqalə və publisistik yazıları tədqiqat işinin obyekti kimi götürülmüşdür.

*Mövzunun işlənmə dərəcəsi.* İngilis ədəbiyyatı Azərbaycan elmi-ictimai mühitində həmişə ciddi maraq doğurmuşdur. Belə bir əlaqə müstəvisində hər iki xalqın ədəbiyyatı arasında ideya-bədii əlaqələrin tarixi haqqında geniş danışmaq, çoxsaylı faktları sadalamaq mümkündür. Uilyam Tekkereyin əsərləri bir sıra dünya xalqlarının dillərinə tərcümə olunaraq özünün pərəstişkarlarını tapmışdır. Lakin ədibin "London tamaşası" adlı hekayəsindən (tərcümə Nəriman Əbdülrəhmanlınındır) başqa heç bir əsəri Azərbaycan dilinə tərcümə edilməmişdir. Bununla yanaşı, onun yaradıcılığı haqqında yalnız icmal xarakterli məqalələrdə, ensiklopedik nəşrlərdə və xarici ölkələr ədəbiyyatı ilə bağlı dərsliklərdə məlumata rast gəlmək mümkündür. Keçmiş rus-sovet ədəbiyyatşünaslığında isə daha ciddi elmi tədqiqat əsərləri yazılmışdır. Tanınmış tədqiqatçılardan İvaşova V.V., Mixalskaya N., Geniyeva E., Vaxruşev V.S., Medyansev İ.T., Leqq O.O. və başqaları Uilyam Tekkereyin yaradıcılığına xas bir sıra problemlər haqqında elmi araşdırmalar aparmışlar.[1]

*Tədqiqatın məqsəd və vəzifələri.* Dissertasiya işinin əsas məqsədi tənqidi realizm və satirik ədəbiyyatın nəzəri-estetik prinsipləri kontekstində Uilyam Tekkerey və Cəlil Məmmədquluzadə yaradıcılığında sosial mühit və insan probleminin qarşılıqlı əlaqələrini araşdırmaqdan ibarətdir. Bunun üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

- İngilis tənqidi realizminin formalaşmasında Uilyam Tekkerey yaradıcılığının yerini müəyyənləşdirmək;
- XIX əsr ingilis ədəbiyyatı kontekstində Uilyam Tekkerey yaradıcılığının əsas meyllərini və onun bədii-estetik özünəməxsusluğunu araşdırmaq;
- Uilyam Tekkereyin yaradıcılığında sosial mühit və insan probleminin bədii həllini aydınlaşdırmaq;
- Uilyam Tekkereyin əsərlərində formalaşan tənqidi realizm prinsiplərini və Cəlil Məmmədquluzadənin yaradıcılığında ifadə olunan bədii-estetik düşüncələrin müqayisəli təhlilini təqdim etmək;

---

[1] Ивашева В.В. Теккерей – сатирик. М.: Изд.во Моск. ун-та., 1956, 303 с.; Михальская Н. «Ярмарка тщеславия» У.М.Теккерея // У.Теккерей. Ярмарка тщеславия. М.: Просвещение, 1986, с. 5-16; Гениева Е. Неизвестный Теккерей // Теккерей в воспоминаниях современников. М.: Художественная литература, 1990, 526 с.; Вахрушев В.С. Творчество Теккерея. Саратов: 1984, 150 с.; Медянцев И.Т. Английская сатира XIX в. (типология и традиция). Ярославль: 1974, 279 с.; Легг О.О. Театральность как тип художественного мировосприятия в английской литературе XIX-XX в.в.: Автореф. дис. …канд. филол. наук. СПб: 2004, 17 с.

- Azərbaycanda maarifçilikdən tənqidi realizmə keçidin nümunəsi timsalında Cəlil Məmmədquluzadənin satirik yaradıcılıq axtarışlarını şərh etmək;

- Cəlil Məmmədquluzadə yaradıcılığında cəmiyyət və insanın taleyi problemini araşdırmaq;

- İngilis və Azərbaycan tənqidi realist yazıçıları kimi dəyərləndirilən Uilyam Tekkerey və Cəlil Məmmədquluzadənin ictimai-siyasi görüşlərində oxşar və fərqli cəhətlərin ümumiləşdirməsini aparmaq.

*Tədqiqatın elmi yeniliyi.* Dissertasiyada ilk dəfə olaraq iki görkəmli realist-satirik yazıçının – Uilyam Tekkerey və Cəlil Məmmədquluzadənin əsərlərində sosial mühit və insan problemi araşdırılır. Ədəbiyyatların doğurduğu tendensiyaların aparıcı meylləri təhlil olunur, hər iki yazıçının əsərləri tənqidi realizmin estetik prinsipləri əsasında tədqiq edilir.

Tədqiqat işində Uilyam Tekkerey və Cəlil Məmmədquluzadənin nəsri yeni rakursdan araşdırılır. Belə ki, Uilyam Tekkerey yaradıcılığı indiyədək Azərbaycan alimləri tərəfindən müstəqil araşdırma obyektinə çevrilməmiş və o, tənqidi realist yazıçı kimi elmi ictimaiyyətə tanıtdırılmamışdır. Halbuki yazıçı ədəbiyyatda öz dövrünə xas klassik realizm metodunu ideya-bədii faktorlarla zənginləşdirərək, realizm çərçivəsindən kənara çıxa bilmiş və roman janrına yeni xarakterik cəhətlər gətirmişdir. Yazıçının əsərlərində teatrallıq, karnaval, buffonada elementləri üstünlük təşkil edir, eləcə də onun satirik metodunda köklü dəyişikliklər müşahidə olunur – Uilyam Tekkerey əsərlərində sərt satira, qrotesk, karikatura əvəzinə istehzaya üstünlük verir. Eynilə Cəlil Məmmədquluzadənin yaradıcılığı XX əsr Azərbaycan realist ədəbi metodunun əsaslı keyfiyyət dəyişikliyinin bariz nümunəsi kimi diqqəti cəlb edir. Beləliklə hər iki yazıçının satirasında bədii novatorluq, janrların inteqrasiyası, insan və sosial mühit probleminə fərqli yanaşma ədəbiyyatın çağdaş nəzəri diskursuna uyğun gəlir və bu parametrlər tədqiqat işinin müasir ədəbiyyatşünaslığın tələblərinə cavab verdiyinin təsdiqi hesab edilə bilər.

*Tədqiqatın metodoloji əsası.* Dissertasiya işində tarixi-müqayisəli və tipoloji təhlil metodlarından istifadə edilmişdir. Tədqiqatın metodoloji əsasında tarixilik prinsipi və mədəniyyətlərarası münasibətlərin qarşılıqlı öyrənilməsi prinsipi əsas götürülmüşdür. Uilyam Tekkerey və Cəlil Məmmədquluzadə kimi zaman və məkan fərqi olan müxtəlif mədəniyyətlərə məxsus yazıçıların ideya mövqelərinin yaxınlığı, onların bədii yaradıcılıq xüsusiyyətləri diqqət mərkəzinə çəkilmişdir. Dissertasiyada ingilis və Azərbaycan klassiklərinin, habelə müasir ədəbiyyatşünaslıq elminin aparıcı

şəxsiyyətlərinin nəzəri-estetik mülahizələrinə mühüm diqqət yetirilmişdir.

*Tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti.* Dissertasiya işində aparılmış təhlil və ümumiləşdirmələr, çıxarılmış nəticələr Azərbaycan-ingilis ədəbi əlaqələri ilə məşğul olan tədqiqatçılar, ali məktəblərdə xarici ölkə ədəbiyyatını tədris edən müəllimlər, habelə xarici dil fakültələrində təhsil alan tələbələr üçün əhəmiyyətli mənbə rolunu oynaya bilər. Əgər Uilyam Tekkereyin və Cəlil Məmmədquluzadənin məhsuldar yaradıcılıq yoluna nəzər salınarsa, məhz həmin dövrdə ingilis və Azərbaycan cəmiyyətlərində mürəkkəb proseslərin olduğu əsas götürülərsə, onda həmin dövrün dialektik anlamı baxımından dissertasiya işi müəyyən əhəmiyyət daşıya bilər.

*Tədqiqatın fərziyyəsi.* Ümumbəşəri, eləcə də ingilis sosial-fəlsəfi düşüncə modelindən bəhrələnmək, milli düşüncə kontekstinə əsaslanmaqla gerçək sosial həyatın və insan modelinin əsaslarını müəyyənləşdirməklə Uilyam Tekkerey və Cəlil Məmmədquluzadənin mövqeyini düzgün və real şəkildə dərk etmək olar.

Tarixin bütün dövrlərində həm İngiltərədə, həm də Azərbaycanda sosial həyat, məslək-ideya, əxlaqi görüşlər və insan problemi ədəbiyyatla sıx bağlı olmuşdur. İctimai və ədəbi fikir səhnəsinə daxil olan Uilyam Tekkerey və Cəlil Məmmədquluzadə yaradıcılığı bir-birinə müxalifətdə olmasalar da, onların yaradıcılığında sosial mühit və insan problemi müştərək ideoloji üstqurumun yaradılmasında müasir zamanın aktuallıq, ciddi elmi əhəmiyyət kəsb edən məsələsidir.

*Müdafiəyə çıxarılan müddəalar.* Tədqiqat işində müdafiəyə aşağıdakı nəzəri müddəalar təqdim olunur:

- İngilis və Azərbaycan tənqidi realizminin yaranmasını şərtləndirən ictimai-siyasi və mədəni amillərin müəyyənləşdirilməsi;
- İngilis və Azərbaycan satirik ədəbiyyatlarının estetikası kontekstində Uilyam Tekkerey və Cəlil Məmmədquluzadə yaradıcılığının ideya-məzmun və bədii sənətkarlıq xüsusiyyətlərini araşdıraraq hər iki yazıçının maarifçiliklə tənqidi realizmin vəhdətinə nail olduğunu göstərən ədəbi faktların üzə çıxarılması;
- İngilis tənqidi realizm ədəbiyyatına yeni, müasir ədəbiyyatşünaslığın tələbləri baxımından yanaşılması və Cəlil Məmmədquluzadə yaradıcılığının bu müstəvidə yenidən dəyərləndirilməsi;
- Uilyam Tekkereylə Cəlil Məmmədquluzadənin ictimai-siyasi görüşlərində, yaradıcılığında oxşar və fərqli cəhətlərin müəyyənləşdirilməsi.

*Dissertasiyanın aprobasiyası.* Tədqiqat işi Azərbaycan Dillər Universitetinin “Xarici ölkələr ədəbiyyatı” kafedrasında yerinə yetirilmişdir.

Dissertasiyanın əsas müddəaları elmi konfranslarda məruzə edilmiş, müxtəlif məcmuələrdə və dərc olunmuş məqalələrdə öz əksini tapmışdır.

*Dissertasiyanın quruluşu.* Dissertasiya işi giriş, iki fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiyanın *"Giriş"* hissəsində mövzunun elmi aktuallığı əsaslandırılır, tədqiqatın obyekt və predmeti, işin məqsəd və vəzifələri, onun nəzəri və təcrübi əhəmiyyəti, müdafiəyə təqdim edilən əsas müddəaları, dissertasiyanın aprobasiyası və quruluşu haqqında məlumat verilir.

Tədqiqat işinin *"XIX əsr ingilis və Azərbaycan ədəbiyyatında yeni tendensiyaların yaranması"* adlanan I fəsli iki bölmədən ibarətdir. İlk bölmədə *"İngilis klassik realizmi kontekstində Uilyam Tekkerey yaradıcılığının novatorluğu"* tədqiq edilir. Bu bölmədə XIX əsr dünya ədəbiyyatında təşəkkül tapan realizmin yeni forması – tənqidi, yaxud klassik realizmin ingilis ədəbiyyatında yeri haqqında elmi-nəzəri fikrin materialları nəzərdən keçirilir, xüsusilə ingilis realizmi kontekstində Uilyam Tekkereyin yaradıcılığının novatorluğunun əsas konturları müəyyənləşdirilir.

Əvvəla, onu qeyd edək ki, "klassik realizm" anlayışı özündə fabula və süjetin vəhdətini birləşdirir. Q.Rikkertin vurğuladığı kimi, oxşarlığa (eyniliyə) can atan yalnız bu vəhdət "obyektin bütöv halda təsvirini" təmin etməyə qadirdir.[1]

Həqiqətən də klassik romanın hissəsi bütövü simvolizə edir. Bütöv də, öz növbəsində, hissədə aşkara çıxır. Romantizmin "ümumisi" öz yerini realizmin "fərdiliyinə", ideal isə gerçəkliyə verir. Romantizmin dahi qəhrəmanını realizmin şöhrətpərəst qəhrəmanı əvəz edir. Romantizmlə realizm hər zaman xəyal və həqiqilik, "romans" və "novel" kimi bir-biri ilə "yarışa girmişdir". Yeni dövrün realist romanı "uydurma"ya qarşı çıxan "həqiqət"i öz şüarına çevirmişdir.

XVIII əsr realist romanı ilə müqayisədə XIX əsr tənqidi realistləri yalnız geniş sosial münaqişələrin təsvir olunmasını irəli sürmüşlər. Tənqidi realizmin bu xüsusiyyətini – böyük sosial proseslərin təsvirini – Valter Skottun tarixi romanı hazırlamışdır.

Roman janrının çiçəklənməsində Çarlz Dikkens və Uilyam Tekkerey yaradıcılığı müstəsna yeri ilə seçilir.

---

[1] Риккерт Г. Науки о природе и науки о культуре. М.: Республика, 1998, с.144

Bu mənada yaradıcılığında artıq "yeni dövrün meyllərini" əks etdirən Uilyam Tekkereyin əsərləri mühüm əhəmiyyət və aktuallıq kəsb edir.

Uilyam Meykpis Tekkerey (William Makepeace Thackeray, 1811 – 1863) XIX əsr ingilis ədəbiyyatında tənqidi realizmə xas satira və qroteskin banisi kimi dəyərləndirilir.

Yazıçının erkən nəsrində (o, 1840-cı illərdə imzasını bir yazıçı kimi tanıtdırmışdır) XIX əsr ingilis romanında ümumi etik meyllərilə inkişaf edən satirik-moralist yazıçının formalaşdığını müşahidə edirik. O, artıq ilk əsərlərində tipik hadisə kimi snobizmi, pula, var-dövlətə sahib olmaq ehtirasını, əxlaqsızlığı və prinsipsizliyi ifşa etməyə can atmışdır.

1846-cı ilin fevralı ilə 1847-ci ilin fevralı arasında yazıçı "Panç" jurnalında "Snoblar kitabı"nı çap etdirmişdir. Sonra bu əsərin adı dəyişdirilmiş, "Özlərindən biri tərəfindən təsvir olunan ingilis snobları" kimi ("The Snobs of England, by One of Themselves") nəşrə təqdim edilmişdir. Burada snoblar haqqında oçerklər silsiləsində ingilis ictimai-siyasi həyatı təsvir olunmuşdur. "Snob" sözünün özü yazıçının şərhində xüsusi məna kəsb edir. Onun ilkin mənası "pinəçi şagirdi" deməkdir. Sonradan o, ədəbsiz, tərbiyəsiz insan mənasını ifadə edən jarqon sözə çevrilmişdir.

Kitab 52 fəsildən ibarətdir və onun hər fəslində snobun müəyyən tipi satirik qələmlə təsvir edilmişdir.

Uilyam Tekkerey ilk dəfə XIX əsr ingilis ədəbiyyatında ətraf mühit və xarakterin qarşılıqlı təsirini açıb göstərmiş və bu, realizmin inkişafına onun böyük töhfəsi kimi dəyərləndirilmişdir.

"Nyukomlar" ("The Newcomes") yenidən burjua-aristokratik mühitin geniş təsviri ilə birləşən ailə xronikasıdır. Əsər möhtəşəm "Müqəddimə" ilə açılır. Əgər "Şöhrətpərəstlik yarmarkası"nın müqəddiməsində yazıçı personajlarını kukla teatrının marionetlərinə bənzədirsə, burada o, onları Ezopun təmsillərindəki alleqorik heyvan fiqurları ilə müqayisə edir: bütün tiplər, insan xarakterləri özünəxas hərəkətləri ilə qədim təmsillərdən və nağıllardan keçir: qorxaq və lovğalar, zülmkarlar və onların qurbanları, fırıldaqçılar və sadəlövhlər; şir libası geyinmiş uzunqulaqlar, ləyaqət maskası geyinmiş Tartyuflar; aşiqlər və onların iztirabları, heyranlığı, nadincliyi, daimiliyi... Təklif olunan kitabda başına tovuz tükü qoyub lovğalanan sağsağanlar təqdim olunacaq... işvəli qızlara dırnaqlarını kəsməyə izn verib onlara aşiq olan şirlər görünəcək; peşələrində uğur qazanan fırıldaqçılara da rast gəlinəcək, lakin namuslu adamlar da bəzən uğur qazanacaq...".[1]

---

[1] Thackeray William Makepeace. The Newcomes. V. I. London: 1855, p. 11.

Uilyam Tekkereyin ikinci tarixi romanı "Virciniyalılar"da ("The Virginians") Henri Esmondun nəvələri – Corc və Henri Uorrinqtonlardan (onlar həmçinin Pendennisin dostu Uorrinqtonun əcdadlarıdır) söhbət gedir.

Yazıçı əsərində XVIII əsrin ikinci yarısında ingilis və Amerika cəmiyyətinin bədii mənzərəsini yaratmışdır.

Onun sonuncu romanları "Filippin sərgüzəştləri" və "Denni Duval"dır. Onlardan birincisi (1862) yazıçının iki əsərinin – 1840-cı ildə nəşr etdirdiyi "Meşşan tarixi" və "Artur Pendennisin hekayəsi"nin bir növ sintezidir.

Yazıçının "Denni Duval" adlı tamamlanmamış romanında onun məşhur marinist (dəniz həyatına dair əsərlər yaradan sənət adamı) – yazıçı Frederik Marriatın (Captain Frederick Marryat, 1792-1848) üslubunda dəniz macəra romanına meyli açıq-aşkar hiss edilir. Balıqçılar və qaçaqmalçılar mühitində tərbiyə alan və sonra hərbi-dəniz donanmasının admiralı olan adi bir gəncin hekayəsi Marriat romanlarının pafosunu xatırladır.

Lakin Uilyam Tekkereyin roman formasının inkişafına verdiyi töhfələri və əhəmiyyətli bədii-satirik kəşflərini onun müasirləri və həmvətənləri Antoni Trollop (Anthony Trollope, 1815-1882) və Corc Eliot (George Eliot, 1819-1880) yüksək qiymətləndirmişlər.

*"Cəlil Məmmədquluzadə XIX əsr Azərbaycan ədəbiyyatında yeni satirik janrın yaradıcısı kimi"* adlı ikinci bölmədə qeyd edilir ki, XVIII əsrdə yaranıb, XIX əsrdə özünün yüksək zirvəsində dayanmış, XX əsrin ilk onilliyində sona çatmış dünya maarifçilik hərəkatı, onun Azərbaycanda yaratdığı ədəbiyyat ictimai fikir və bədii ideyaların mükəmməl ifadə vasitəsinə çevrilmişdir.

Dövrün ədəbiyyatında maarifçilik axtarışlarını təfərrüatlı şəkildə araşdıran ədəbiyyatşünas-alim Yaşar Qarayevin aşağıdakı mühakiməsi ciddi elmi-nəzəri əhəmiyyət daşıyır. O yazır: "Burada tənqid edilən qafilliyin və avamlığın məzmunu dəyişirdi: o ictimai avamlıq, vətəndaşlıq qafilliyi, bilavasitə milli-inqilabi şüur nadanlığı şəklində irəli sürülürdü. Maarifçilik məqsədləri burada da izlənilirdi, lakin yeni, daha obyektiv-tarixi vəzifələrə uyğunlaşdırılmış bir şəkildə və tənqidi-realistlərin, Sabirin dediyi mənada: "haqqı xalqa bildirib, dəfi-zəlalət etməli!". Maarifləndirmək – yəni xalqı silahlandırmaq: ictimai mübarizə idealları ilə! Milli qeyrət, beynəlmiləlçilik, mübarizlik və həmrəylik "savad"ı ilə!"[1] Göründüyü kimi dövrün

[1] Qarayev Yaşar. Azərbaycan realizminin mərhələləri. Bakı: Elm, 1980, s. 241-242.

maarifçiliyi antifeodal səciyyədən daha çox yeni həyat uğrunda mübarizə keyfiyyətini özündə əxz etmişdir. Beləliklə, onun ədəbi-bədii ifadəsini Cəlil Məmmədquluzadə yaradıcılığında müəyyənləşdirmək mümkündür.

XIX əsrin son onilliyində ədəbi fəaliyyətə başlamış Cəlil Məmmədquluzadə sələfi Mirzə Fətəli Axundzadənin ənənələrini davam etdirmiş, "Bu gün millət üçün faydalı və oxucuların zövqləri üçün rəğbətli olan əsər dramadır" ideyasına həmrəy olaraq, dövrünün maarifçi ruhuna uyğun, klassik Azərbaycan dramaturgiyasını zənginləşdirən "Ölülər", "Dəli yığıncağı", "Anamın kitabı", "Danabaş kəndinin məktəbi" kimi yüksək ədəbi-estetik zövq aşılayan əsərlərini yaratmışdır.

Onun dram yaradıcılığında "Ölülər" pyesi orijinallığı, mövzu seçimi və hadisələrin dramaturji həlli baxımından xüsusi yer tutur. Doğrudur, dramaturq əsərini maarifçilik dövrünün əsas dram-bədii yaradıcılıq estetikasının mühüm istiqamət xəttinə uyğun olaraq komediya adlandırmışdır. Lakin onu tragi-komediya, pyes adlandıranlar da fikirlərində yanılmırlar.

"Ölülər" məzmunu baxımdan sadalanan təyinatlardan dram janrına daha çox uyğun gəlir. Yeniliklə köhnəliyin mübarizəsi, dini xurafatın dağıdıcı təsiri, savadsızlığın baş alıb getməsi əsərin dram səciyyəsini gücləndirməklə yanaşı, maarifçilik dövrünün başa çatdığı, yeni ictimai-siyasi mərhələdə təzə ədəbi janrın meydana çıxması məntiqi zərurətini özündə təcəssüm etdirir.

Cəlil Məmmədquluzadənin ikinci böyük əsəri "Anamın kitabı" dramıdır. Ədibin bu əsərində də maarifçi ideyalar, maarifçi prinsipləri və ənənələri bədii ifadəsini tapmış, qlobal maarifçi hərəkatı kontekstində milli-mədəni intibahın yeni istiqamətinin inkişafına təkan vermişdir.

Azərbaycan ədibinin Uilyam Tekkerey yaradıcılığı ilə iki ədəbiyyat tipinin vəhdətində öyrənilməsi mədəni-ədəbi dəyərlər arasında heç bir milli sərhəddin qoyulmadığını göstərir. Əvvəla, hər iki görkəmli mətbuat və ədəbiyyat xadiminin cəmiyyət həyatını realist təsvir üsulu ilə qələmə alması ilk keyfiyyət oxşarlığı kimi diqqəti cəlb edir. Sosial mühit və insan qarşıdurmasının ziddiyyətlərini təsvir edərkən hər iki yazıçı tipik şəraitin realist təsviri fonunda müasirliyə can atan yeni qəhrəman obrazlar silsiləsini yaratmışlar. Henri Esmond, Barri Lindon, Bekki Şarp, Dobbin, Artur Pendennis kimi, Kefli İskəndər, Məmmədhəsən əmi, Usta Zeynal, Novruzəli müxtəlif təbəqələrin adamı olsalar da, mənəvi saflığa can atırlar…

Cəlil Məmmədquluzadənin yaradıcılığında tarixi dövrün tələbi ilə səsləşən həqiqətlər komediyanın əzəli qanunları ilə satiraya xidmət edir. Bu keyfiyyət yalnız ifşa və tənqidin kəskinləşməsi, qrotesk, sarkazm kimi

vasitələrə müraciət edilməsi ilə səciyyələnmir. Satira, öldürücü gülüş öz kəskinliyi ilə həyatın daha dərin qatlarına nüfuz edib, daha böyük problem və məsələləri əhatə edirdi. Təbii ki, bu halda "xalis komik priyomlar" əvəzinə dramatik ünsürlər komizmə qovuşmalı, gülüş və qüssə yan-yana yaşamalı, komik vəziyyətləri təsirli dramatik gərginliklər müşayiət etməli idi. Bu baxımdan ədibin kiçik, talesiz insanlarla hakim dairələr və onların təsbit etdiyi qanunlar arasındakı kolliziyanın təsvirində dərin psixoloji səhnələr yaratması təsadüfi hal hesab edilməməlidir. Onun hər bir pyesi komik, dramatik və tragik motivlərin qovuşmuş qaynağı şəklində meydana çıxır. Cəlil Məmmədquluzadə əsərləri azadlıq ideyalarının kölgəli cəhətlərini bütün çılpaqlığı ilə əks etdirir. Şüur intibahı ilə bərabər, mənəvi ölülükdən doğan faciəni göstərir.

Dissertasiyanın II fəsli *"İngilis və Azərbaycan realizmində sosial mühit və insan qarşıdurması"* adlanır.

*"Uilyam Tekkereyin "Şöhrətpərəstlik yarmarkası" romanında insanın sosial faciəsi"*ndən bəhs edən birinci bölmədə qeyd edilir ki, yazıçı ədəbiyyat tarixində "Şöhrətpərəstlik yarmarkası" romanının müəllifi kimi böyük şöhrət qazanmışdır.

"Şöhrətpərəstlik yarmarkası"nda Snoblar dünyasını yaradan müəllif keçən əsrin əvvəllərini təsvir edərək onu digər tarixi dövrlərin analoqu kimi göstərməyə müvəffəq olmuşdur.

Teatrlaşdırma prinsipi dünyanın satirik təsvir elementi kimi "Şöhrətpərəstlik yarmarkası" romanı üçün çox vacibdir. Teatrlaşdırma ciddi tərtib edilmiş, "çox məharətlə rolları bölüşdürən müdrik safsar (xəzli heyvan) tərəfindən idarə olunan" tamaşadır və burada "safsar" rolunda hər şeyi əhatə edən sənətkarın yaradıcılıq iradəsi çıxış edir.

Teatrlaşdırma həmişə icraçıların – səhnə oyunçularının və tamaşaçıların mövcudluğunu nəzərdə tutur: təsadüfi deyildir ki, qədim yunan dilindən tərcümədə "teatr" sözü "tamaşaçı üçün yer" deməkdir.

"Oyun" və "teatrlaşdırma" anlayışlarının qovuşuğunda "teatrallıq" anlayışı dayanır. Bu anlayışın özü də incəsənət növü kimi teatr məkanından çıxaraq ədəbi əsərə daxil olur. Daha geniş mənada götürsək, ədəbiyyatda "teatrallıq" anlayışı əsərin xüsusi bədii təşkil formasını ifadə edir.

Uilyam Tekkereyin "Şöhrətpərəstlik yarmarkası" romanının ikinci adı "Qəhrəmansız roman" kimi təqdim edilmişdir.

Burada dünya romanın əsas hissəsini təşkil edən hadisələr fonunda Yarmarka təsvir olunur. Kuklaoynadan tamaşaçıları çağırır, onlara bəzi kuklaları təqdim edir: Rebekka, Emili, Dobbin. O, insanları içərisində hər

şeyi olan tamaşaya baxmağa dəvət edir: "qan axıdılan döyüşlər, möhtəşəm və dəbdəbəli karusellər, kübar həyatın səhnələri, eyni zamanda çox sadə insanların həyatından görüntülər, həssas ürəklər üçün məhəbbət epizodları, bir də yüngül janrda komik epizodlar".[1]

"Şöhrətpərəstlik yarmarkası"nda pul, cəmiyyətdə mövqe və ehtiram dalınca qaçarkən həqiqi dəyərlər yaddan çıxır. İnsan bankdakı hesabı, titulu və nəyisə qurban vermək bacarığına görə dəyərləndirilir.

Uilyam Tekkerey personajlarına müdrik və hər şeydən agah skeptik-moralistin istehzalı baxışları ilə yuxarıdan aşağıya baxır və onları oxucusuna hoqqabazlıqları və qeyri-adi əyləncələri nümayiş etdirən insanları yarmarka balaqanındakı marionetlər kimi göstərir.

Əsərin müəllifi kukla tamaşasının şərhçisi və rejissoru rolunda çıxış edir. Onun tamaşaçıya müraciətinin tonu dəyişə bilər: bu gah məzəli eyham, gah acı istehza, gah da hiddətli ifşa ilə yoğrulmuşdur.

Ədib əsərində geniş aristokratlar qalereyasını yaratmışdır. Bu, Krouli ailəsinin çoxsaylı üzvləridir: ədəbsiz və kobud mülkədar Pitt Krouli, onun oğulları və qardaşı Byut Krouli, qohumlarının bir-birləri ilə çəkişdikləri böyük var-dövlətə sahib yaşlı xanım Krouli. Pula, var-dövlətə görə Kroulilərin hər biri rəqibinin boğazını üzməyə belə hazırdır. Acgöz maraqlar və alçaq ehtiraslar doğma insanları bir-birinin düşməninə çevirir.

Ser Pitt Kroulinin – "həyatın rəzilliklərinə həvəsi olan filosofun" şəxsiyyəti daha koloritlidir. Ser Pitt qəddar və tamahkardır. O, savadsızdır və indiyə qədər əlinə bir kitab belə alıb oxumağa cəhd göstərməyib, buna baxmayaraq, "son dərəcə prinsipiallıqla öz ləyaqətini qoruyur və nadir hallarda, özü də yalnız dördatlı qoşquda gəzib dolaşır". "Dünyada çətin ki, ikinci belə hiyləgər, alçaq, xudbin, deyingən və əxlaqsız qoca tapılsın. Pitt Kroulinin yekəpər əli öz cibindən başqa istənilən cibə girməyə hazırdır".[2]

Aristokrat snoblar cərgəsində markiz Staynın da adı çəkilir. O, böyük həyat təcrübəsi olan yaşlı, sırtıq, bacarıqlı əyyaş və oğrudur. Lakin Stayn özünə titul və böyük sərvət əldə edə bilir, adlı-sanlı aristokrat qızla evlənir və cəmiyyətin sütununa çevrilir.

Burjua dairələrinə mənsub Emili və aristokrat mühitinə qoşulmağa can atan Rebekkanın taleyi timsalında yazıçı ingilis həyatının realist mənzərəsini yaradır, şəxsi talelərin sosial mühitlə əlaqəsini açıb göstərir.

---

[1] Thackeray William Makepeace. Vanity Fair. A Novel without a Hero: In II Parts. Part I. M.: Foreign Languages Publishing House, 1951, p.18.

[2] İbid., p. 90.

"Şöhrətpərəstlik yarmarkası"nda insanlar, təbii ki, varlılara yaltaqlanırlar" – qəhrəmanların münasibətləri bununla izah olunur. Birja dəllalı Sedlinin ailəsi dilənçi vəziyyətinə düşür, tacir Osborn isə uğur qazanır. Sedlinin müflisləşməsi qohumu Osbornu ondan üz döndərməyə məcbur edir. Var-dövlətdən məhrum olmuş bədbəxt Emili də çölə atılır. Yalnız miras alaraq, o, yenidən burjua snoblarının dünyasında özünə yer tapa bilər.

Uilyam Tekkerey oxucunu Bekkinin heç də əxlaqi cəhətdən vergi müfəttişi vəzifəsində uğur qazanan Coz Sedlidən, Krouli ailəsindən pozğun olmadığını anlamağa məcbur edir. Şübhəsiz ki, o, yazıçının rişxəndlə soyadlar verdiyi, at, qoyun və digər heyvanlarla birbaşa qohumluğuna işarə etdiyi "yüksək təbəqədən" olan adlı-sanlı şəxslərdən pis deyildir. Əlbəttə ki, Bekki öz ədəbsiz, pozğun və qəddar himayədarı markiz Stayndan (yazıçı ona həmçinin "Stein" – alman dilində "daş" soyadı vermişdir) da pis deyildir. Buna görə də Bekkinin bütün intriqalarına baxmayaraq, çətin ki, Staynı onun qurbanı hesab etmək olar.

Rebekka Şarp ağıllı, fərasətli, mahir, cazibədar, enerjili, işgüzardır, möhkəm xasiyyətə, qətiyyətə, iradəyə malikdir. O, ilk dəfə romanın səhifələrində görünəndə heç nədən məlumatı olmayan oxucu qeyri-iradi olaraq ona rəğbət bəsləyir. Özündən razı, təkəbbürlü və lovğa miss Pinkerton Bekkini – kasıb zümrənin qızı – istedadlı, lakin səhlənkar və içkiyə qurşanmış rəssam-atası və tanınmayan rəqqasənin yetim qızını kölə vəziyyətində saxladıqları gənc qızlar üçün istifadə edir. Pansionu tərk edərkən o, özünü necə də sərbəst və hiddətli aparır. Lakin Bekki Şarpın xarakteri, onun həyat məramı və ona çatmaq üçün seçdiyi vasitələr, davranış tərzi heç də qəhrəmana xas xüsusiyyətləri özündə təcəssüm etdirmir. Bekki Şarp acgöz fırıldaqçıdır. O, yuxarıya doğru irəliləyərək böyük var-dövlətə, ad-sana və ya ən böyük vəzifəyə çatmaq üçün hər şeyə hazırdır. O, heç də əxlaqsız həyat tərzi yaşadığı üçün özünü günahlandırmağa meylli deyil, əksinə bunun səbəbini yaşadığı mühitdə, maddi ehtiyacda görür.

Uilyam Dobbin Emilini nəvaziş və fədakarlıqla sevir, Emilinin sözləri ilə desək, o, "xeyirxahlıq və dürüstlük mücəssəməsidir". Bu yalnız qərəzli görünə biləcək Emilinin sözləri deyil, həm də müəllifin fikridir. Bu məsələdən agah olmaq oxucu üçün o qədər də çətin deyildir. Lakin Emilinin yaşadığı mühit maskalanmış insanları asanlıqla öz toruna sala bilən "əsasları" ilə şübhəli görünür. "Şöhrətpərəstlik yarmarkası"nın müsbət qəhrəmanı Çarlz Dikkens romanlarının müsbət qəhrəmanları kimi güclü təsir və simpatiya oyatmır.

Bekki asanlıqla və ani olaraq özünə qəsd etmək fikrindən çəkinir. O,

sadəcə inadkar yox, həm də parlaq həyata can atan həyatsevər obrazdır.

Emili Sedlinin həyatı fərqli şəkildə qurulur. Onun payına olmazın əzab-əziyyət düşür, o, özünü həm sadəlövh, həm də səfeh kimi aparır, lakin yalnız özü haqqında fikirləşmir, öz qeydinə qalmır. Müəllif onun haqqında hekayəni "xoşbəxt sonluqla" – onu sevən insanla, Uilyam Dobbinlə nigahla bitirməyi mümkün hesab edir. Yazıçı göstərir ki, bu insanlar həyatlarında belə bir sevincə həqiqətən də layiqdirlər.

"Yarmarka"da hadisələrin cərəyan etdiyi zamanı yazıçı Napoleon müharibələrinin Avropanı lərzəyə gətirdiyi XIX əsrin ilk 30 ilinə aid edir. Romanda bir neçə səhifə əsərin bəzi personajları kimi Uilyam Dobbinin də iştirak etdiyi Vaterloo döyüşünə həsr edilmişdir.

Uilyam Tekkereyin təsvir etdiyi "Söhrətpərəstlik yarmarkası" alqı-satqı mərkəzində baş verən hadisələri xatırladır və yazıçı təqdim etdiyi obrazları ilə yarmarka sevincini və təlaşını özünün yaratdığı balaqan (küçə tamaşası) tamaşasına oxşadır.

"Şöhrətpərəstlik yarmarkası"nın hadisələri XIX əsrin 10–20-ci illərini əhatə edir. Əslində Uiyam Tekkereyin romanında baş verən hadisələr Lev Tolstoyun "Hərb və sülh" romanında təsvir olunan tarixi dövrün bir hissəsini əhatə edir. Romanın bəzi epizodlarından göründüyü kimi Uilyam Tekkerey Napoleon hücumunun dəf edilməsi nəticəsində insanlarda vətənpərvərlik əhval-ruhiyyəsinin yüksəlməsindən çıxış edərək böyük ustalıqla real sosial mühitin yeni səhnələrini yaratmışdır.

İkinci fəslin II bölməsi *"Cəlil Məmmədquluzadə realizmində ictimai gerçəklik və insan"* adlanır.

Uilyam Tekkereylə Cəlil Məmmədquluzadə bir-birindən xeyli uzaqda, müxtəlif ictimai quruluşlu cəmiyyətdə və bir qədər fərqli tarixi mərhələdə yaşasalar da, hər iki yazıçının həyatı, şəxsiyyəti və yaradıcılığı arasında paralellər aparmaq mümkündür.

Uilyam Tekkerey kimi Cəlil Məmmədquluzadəni öz müasirlərindən fərqləndirən bir cəhət onun iti və sərrast müşahidə qabiliyyəti idi. Hər iki yazıçı cəmiyyətin həyatındakı naqis cəhətləri görə bilir, onların daha kəskin, vacib və tipik olanlarını seçir və satira atəşini məhz həmin dəqiq ünvana yönəldirdilər.

Uilyam Tekkerey və Cəlil Məmmədquluzadə yaşadığı sosial mühitlə açıq döyüşə girmişdi, onlar bütün naqislikləri gülüşün ifşası ilə aradan qaldırmaq məramında idi. Əlbəttə, onların hər ikisi öz dostlarının və tanışlarının məsləhətlərinə qulaq asaraq, yalnız oxucunu əyləndirmək yolunu tutub, birbaşa ünvanı olmayan yumor yaradıcılığı yolu ilə də gedə

bilərdilər. Lakin Uilyam Tekkerey də, Mirzə Cəlil də yolun ən çətinini, ən cəsarətlisini və ən təhlükəlisini seçmişdi. Onların əsərlərini mütaliə edən oxucular və tənqidçilər müəlliflərin heç də yüngül bir məzhəkəçiliklə məşğul olmadığını aydın görürdülər. İlk növbədə Uilyam Tekkereyin əsərləri İngiltərə haqqında ciddi-cəhdlə yaradılmış illüziyaları alt-üst edir, Mirzə Cəlil isə dövrünün reallıqlarının çirkin maskasını yırtırdı.

Hər iki sənətkarın məqalə, parodiya, pamflet, hekayə, povest və sair əsərlərində vətən və vətəndaşlıq romantiklərdə olduğu kimi mücərrəd obrazlarla müşayiət olunmur. Onların nəsrində Vətənin sərhədləri və coğrafi dəyərləri göstərilir, onun "aşağı və yuxarı" təbəqəsinin sosial-psixoloji durumu şərh olunur. Uilyam Tekkerey İngiltərəni "zülmdən, şər qüvvələrdən və bədbəxtliklərdən" qorumağı yazıçı məramına çevirir, Cəlil Məmmədquluzadə isə Azərbaycanın və onun biçarə vətəndaşlarının düşdüyü vəziyyəti olduğu kimi göstərməklə yanaşı, "keçəl-küçəl" qardaşlarının bütöv vətən, müstəqil dövlət sahibi olmasını, həmvətənlərinin "bir dildə, əməldə və ideyada" birləşməsini arzulayır.

Uilyam Tekkerey də Cəlil Məmmədquluzadə kimi mövcud vəziyyətin, sosial-siyasi durumun, habelə cəmiyyətin, insanın mənəvi-psixoloji vəziyyətinin yeknəsəqliyi, ətaləti və cəhaləti əleyhinə çıxır, yenilikçiliyi və islahatçılığı insanları tərəqqiyə aparacaq başlıca vəzifə hesab edirdi. Onlar göstərilənlərlə kifayətlənmir, əksinə, cəmiyyətdaxili dinamikanın tərəfdarı kimi çıxış edir, tipik xarakterlərin təsviri yolu ilə mövcud vəziyyətdən imtina ideyasını ön plana çəkir, pul, sərvət əsiri olanların, xalqın başına "əngəl-kələf" (M.Ə.Sabir) kəsilənlərin əlindən qurtuluşa səsləyirdi. Bu isə Uilyam Tekkereyin təbirincə desək "snobların zülmündən qurtarmaq" üçün ən doğru yol idi.

Hər iki yazıçını yaradıcı şəxs kimi bir-birinə bağlayan daha bir amil onların bədii əsərdə şəxsi həyatını qələmə almasıdır. Onlar müxtəlif janrlarda – satirik publisistika, pamflet və felyetonlarda, habelə ədəbi-fəlsəfi əsərlərində müəllif "mən"ini gizlətməmiş, böyük sənətkar qələmi ilə hekayə, povest və romanlarını yazmışlar. Lakin bütünlükdə onlar mövcud sosial həyat və onun insanları haqqında düşüncələrini ürək ağrısı ilə qələmə almışlar.

Cəlil Məmmədquluzadənin ədəbi irsi Azərbaycan ədəbiyyatşünaslığında onun yaradıcılığı, zəngin arxiv sənədləri və əsərləri müstəvisində sistemli şəkildə araşdırılmışdır. Firudin bəy Köçərli, Qulam Məmmədli, Əziz Şərif, Əziz Mirəhmədov, Mir Cəlal, Abbas Zamanov və başqaları Mirzə Cəlil irsini layiqincə dəyərləndirmişlər. Son illərdə Cəlil Məmmədqulu-

zadənin həyatı və yaradıcılığı ilə bağlı fundamental elmi əsərləri ilə akademik İsa Həbibbəyli öz sələflərinin layiqli davamçısına çevrilmişdir.

Bir sıra mədəni layihələri uğurla həyata keçirən müstəqil respublikamızda Cəlil Məmmədquluzadənin zəngin ədəbi irsinin ingilis, fransız, alman, ispan və s. geniş auditoriyalı dillərə tərcümə edilib yayılması da diqqət mərkəzində saxlanmalı, Mirzə Cəlil məktəbinin satira ənənələri, həmin ənənələri dəyərləndirən Azərbaycan elmi-nəzəri fikrinin tədqiqatları dünya meridianlarına çıxarılmalıdır.

Dissertasiyanın *"Nəticə"* hissəsində qeyd edilir ki, sosial mühitin gerçəkliklərinin satirik təsvirini yaradan Uilyam Tekkerey və Cəlil Məmmədquluzadə nəinki ictimai fikrin, eləcə də elmi tədqiqat çevrəsinin adamlarının böyük marağına səbəb olmuşdur. Bu baxımdan adları çəkilən ediblərin, tarixi, ədəbi fikir təcrübəsinə istinad edərək, dünya xalqları arasında elmi-ədəbi inteqrasiyanın zəruriliyi platformasından çıxış edərək bir bütövü təmsil edən ədəbiyyatlar tipinin vəhdətdə öyrənilməsini günün vacib və aktual məsələlərindən biri hesab edirik.

İngilis və Azərbaycan ədəbiyyatında tənqidi realizmin və satirik düşüncə tarixinin bir-birinə yaxın zəka sahibləri olan Uilyam Tekkerey və Cəlil Məmmədquluzadənin yaradıcılığında əksini tapan sosial mühit və insan problemi ədəbi-mədəni təkamülə, mütərəqqi islahatların aparılmasına doğru addımların atılmasında heç şübhəsiz ki, müəyyən pozitiv rol oynamışdır.

Ədəbi aləmdə, "Freyzer" və "Panç" jurnallarında Mikel Ancelo Titmarş (bu təxəllüs yəqin ki, edibin yalnız bədii istedadı, eləcə də dünya şöhrətli rəssam-heykəltəraş Mikelancelo kimi burnunun sınıqlığı ilə əlaqələndirilir – G.Ö.) təxəllüsü ilə tanınan Uilyam Tekkereylə Azərbaycan ədəbi fikrində "Molla Nəsrəddin" kimi məşhur olan Cəlil Məmmədquluzadə imici və sənətkarlıq xüsusiyyətləri arasında ideya-estetik, sənətkarlıq oxşarlıqlarını müəyyənləşdirmək mümkün olmuşdur.

Tədqiqat zamanı ədəbiyyatşünaslığın nəzəri-eststik prinsiplərindən çıxış edərək hər iki yazıçının həm bədii sənətkarlıq məsələləri, həm də sosial mühit və insan problemi ilə əlaqədar onların tərəf-müqabil platformasında oxşarlığı hər iki edibin yazıçı-vətəndaş mövqeyi ilə əlaqələndirilə bilər.

Hər iki yazıçının bədii-estetik düşüncəsində sosial mühitin və insan probleminin təzahürlərinin müxtəlif tərəflərinin təsviri və tənqidi milli-mədəni tərəqqiyə xidmət baxımından qiymətləndirilir.

Hər iki edib öz yaradıcılığında publisist üslubda yazdığı əsərlərində

Qərb və Şərq xalqları arasında milli ədavətə, dini qarşıdurmaya çalışan qüvvələrə etirazını ifadə etmiş, sosial həyat, təbiət və inkişafla bağlı məsələləri elmi-tarixi biliklərlə həll etməyi başlıca yazıçı-vətəndaş vəzifəsinə çevirmişdir.

Uilyam Tekkereyin bütün yaradıcılığı snoblara qarşı yönəldilərək, bu bəlanın hərtərəfli təhlilinə çevrilmişdi. Cəlil Məmmədquluzadənin tənqidi obyekti azərbaycansayağı snoblar, diri ikən “ölülər” idi. Nəticə etibarı ilə Azərbaycan ədəbiyyatında da Uilyam Tekkerey yaradıcılığında olduğu kimi “yuxarılar və aşağılar” arasında müxtəlif xarakterləri nümayiş etdirən snobların yarandığını söyləmək mümkündür.

Uilyam Tekkerey bir çox əsərlərində, o cümlədən “Kornhildən Qahirəyədək” adlı səfər təəssüratında Qərb-Şərq əlaqələrində axtarışlarının yeni tipini yaratmışdır. Bu isə, hər şeydən əvvəl, ədibin Şərq ölkələrində sosial həyata və insana humanist baxışının təzahürü kimi dəyərləndirilə bilər. Beləliklə, U.Tekkereyin həm Qərb, həm də Şərq həyatına baxışının əlaqələr müstəvisində öyrənilməsi onun həm də ciddi üslublu yazıçı olduğunu söyləməyə əsas verir.

Qərb (İngiltərə) və Şərq (Azərbaycan) ədəbiyyatlarının tipologiyasında iki mədəniyyətin və ədəbiyyatın Azərbaycan ədəbiyyatşünaslığında vəhdətdə öyrənilməsi çox mühüm və aktual məsələdir. Beləliklə, bütöv mədəniyyətlər və ədəbiyyatlar sistemininin qarşılıqlı şəkildə tədqiqinin dünya intibahına xidmətin ən doğru yol olduğu nəticəsinə gəlirik.

Dissertasiyanın əsas məzmunu və müddəaları aşağıdakı məqalə və tezislərdə öz əksini tapmışdır:

1. Uilyam Meykpis Tekkereyin “Şöhrətpərəstlik yarmarkası” əsərində xeyirxah və bədxah qadın obrazları. // Xəbərlər. Bakı: Azərbaycan Dövlət Pedaqoji Universiteti, 2006, № 2, s.163-167
2. İngilis ədəbiyyatında Tekkerey fenomeni // Elmi xəbərlər. Bakı: Azərbaycan Dillər Universiteti, 2006, № 4, s. 126-131
3. Cəlil Məmmədquluzadə yaradıcılığında tənqidi realizm metodu // Elmi xəbərlər. Bakı: Azərbaycan Dillər Universiteti, 2007, № 4, s. 280-283
4. Cəlil Məmmədquluzadə – Azərbaycan maarifçiliyinin parlaq xələfi // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Bakı: Bakı Slavyan Universiteti, 2007, № 6, s. 148-152
5. U.Tekkereyin “Şöhrətpərəstlik yarmarkası” romanının teatrallığı // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Bakı: Bakı Slavyan Universiteti, 2011, № 1, s.110-114
6. U.M.Tekkerey və C.Məmmədquluzadə yaradıcılığı müasir ədəbi əlaqələr kontekstində / Bolonya prinsiplərinin tətbiqi təcrübəsi. Respublika elmi-praktiki konfransın materiallarının tezisləri. Bakı: Azərbaycan Dillər Universiteti, 2011, s. 27-29
7. Mirzə Cəlil və U.M.Tekkerey satirasının özünəməxsusluğu / Azərbaycanşünaslığın aktual problemləri. Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 88-ci ildönümünə həsr olunmuş II Beynəlxalq elmi konfransın materialları. II hissə, Bakı-Gəncə: Bakı Slavyan Universiteti, Gəncə Dövlət Universiteti, 2011, s. 313-319
8. Исторический роман У.М.Теккерея в его современном звучании // Глобальный научный потенциал. СПб: 2012, № 6 (15), s. 23-26
9. Социальная трагедия человека в «Ярмарке тщеславия» У.М.Теккерея // Перспективы науки. Тамбов: 2012, № 9 (36), s. 69-73

Гюльсаран Гамлет гызы Омарова

# СОЦИАЛЬНАЯ СРЕДА И ПРОБЛЕМА ЧЕЛОВЕКА В АНГЛИЙСКОЙ И АЗЕРБАЙДЖАНСКОЙ ЛИТЕРАТУРЕ
(на основе произведений У.Теккерея и Дж.Мамедкулузаде)

## Резюме

Диссертационная работа на тему "Социальная среда и проблема человека в английской и азербайджанской литературе (на основе произведений У.Теккерея и Дж.Мамедкулузаде)" состоит из введения, двух глав, заключения и списка использованной литературы.

Во введении представлены актуальность, степень разработанности, объект и предмет, цель и задачи исследования, его научная новизна, методологическая основа, теоретическая и практическая значимость, гипотеза и методы исследования.

Основная цель работы состоит в изучении социальной среды и проблемы человека в английской и азербайджанской литературе на основе произведений У.Теккерея и Дж.Мамедкулузаде.

Первая глава диссертации "Зарождение новых тенденций в английской и азербайджанской литературе XIX века" посвящена исследованию истории проблемы. В ней изучается место и роль критического, или классического реализма в контексте мировой литературы XIX века.

Во второй главе диссертации "Противостояние человека и социальной среды в английском и азербайджанском реализме" исследуется социальная трагедия человека в "Ярмарке тщеславия" У.Теккерея и проблема социальной действительности и человека в реализме Дж.Мамедкулузаде.

В заключении диссертации обобщены основные выводы проведенного исследования.

Gulsaran Hamlet Omarova

## SOCIAL ENVIRONMENT AND HUMAN PROBLEM IN THE ENGLISH AND THE AZERBAIJANI LITERATURE (based on W.Thackeray's and J.Mammadguluzade's works)

### Summary

Thesis work on the topic "Social environment and human problem in the English and the Azerbaijani literature (based on W.Thackeray's and J.Mammadguluzade's works)" consists of the introduction, two chapters, the conclusion and the list of references.

Actuality, degree of investigation of the topic, object and subject, the aims and purpose of research, its scientific novelty, methodology, theoretical and practical significance, hypothesis and research methods are presented in the introduction.

The objective of the work is to study social environment and human problem in the English and the Azerbaijani literature based on W.Thackeray's and J.Mammadguluzade's works.

The first chapter of thesis work titled "Formation of new trends in the English and the Azerbaijani literature of the XIX century" is devoted to study of the problem's background. Place and role of critical or classical realism within context of the classical literature of the XIX century are studied in this chapter.

Social tragedy of human being in W.Thackeray's "Vanity Fair" and problem of social reality and human being in J.Mammadguluzade's realism are studied in the second chapter of the thesis work entitled "Confrontation of human being against social environment in the English and the Azerbaijani realism".

Main implications of conducted study are summarized in the conclusion.

Çapa imzalanıb:  25.02.2013
Format: 60x84 1/16. Tiraj: 100.

**«Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzi**
Bakı, Rəsul Rza küç., 125
tel./faks  596 21 44
*e-mail: mutarjim@mail.ru*

МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
АЗЕРБАЙДЖАНСКИЙ УНИВЕРСИТЕТ ЯЗЫКОВ

На правах рукописи

ГЮЛЬСАРАН ГАМЛЕТ гызы ОМАРОВА

# СОЦИАЛЬНАЯ СРЕДА И ПРОБЛЕМА ЧЕЛОВЕКА В АНГЛИЙСКОЙ И АЗЕРБАЙДЖАНСКОЙ ЛИТЕРАТУРЕ
(на основе произведений У.Теккерея и Дж.Мамедкулузаде)

5718.01 – Мировая литература (английская литература)

А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание ученой степени
доктора философии по филологии

Баку – 2013